# Birinci vitse-prezident: Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam

*Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Beş il əvvəl, 2017-ci il fevralın 21-də Prezidentin sərəncamı ilə Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib və fəaliyyət dairəsi, xalqa xidmət statusu daha da artıb. Həmin gün Mehriban xanım İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasında təqdim olunub.***







*"Mən öhdəmə düşən məsuliyyəti çox yaxşı dərk edirəm və əlbəttə, həyəcan da keçirirəm. Lakin mən gələcəyə böyük nikbinliklə baxıram. Çünki mənim sizin kimi həmkarlarım var, məni dəstəkləyən minlərlə soydaşımız var, ölkəmizin İlham Əliyev kimi bacarıqlı, cəsarətli, zəkalı, eyni zamanda, ən yüksək insani keyfiyyətlərə malik olan prezidenti var. Biz birlikdə əyilməz bir gücük. Mən əminəm ki, Azərbaycanın gələcəyi üçün, Azərbaycanın gələcək inkişafı üçün, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimizdən gələni bundan sonra da tam gücümüzlə birlikdə, bir komanda kimi həyata keçirəcəyik".*

**Mehriban ƏLİYEVA**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**





Azərbaycanda vitse-prezidentlik postları əvvəlki il Konstitusiyaya dəyişikliklər və əlavələr edilməsi məqsədilə keçirilən referendumdan sonra yaradılıb. Səsvermədə seçicilərin 69,7 faizi iştirak edib. Yenilənmiş Konstitusiyaya əsasən, Birinci vitse-prezident və digər vitse-prezidentlərin təyinatı və azad edilməsi səlahiyyəti prezidentə məxsusdur və dövlət başçısı təyinatı razılaşdırmalı deyil. Dövlət başçısı Təhlükəsizlik Şurasının iclasında üzvlərə təqdim etdiyi Mehriban xanımın üstün keyfiyyətlərini vurğulayıb və belə bir əminlik ifadə edib ki, o, yeni postunda ölkəmiz və xalqımızın rifahı naminə daha məhsuldar fəaliyyət göstərəcək.

Martın 7-də Birinci vitse-prezident Mehriban Əliyeva Milli Məclisin plenar iclasında çıxışı zamanı 12 illik deputatlıq fəaliyyətini böyük bir ömür məktəbi kimi qiymətləndirib, millət vəkili kimi əldə etdiyi təcrübəni əvəzsiz saydığını bildirərək, yeni vəzifəsi ilə əlaqədar olaraq deyib: "Bu yüksək tribunadan mənə inanan hər bir insanı əmin etmək istərdim ki, gələcək fəaliyyətimdə də mənəvi dəyərləri üstün tutacağam, Azərbaycanın müstəqilliyinin qorunması, ölkəmizin hərtərəfli inkişafı üçün tam gücümlə çalışacağam".

Birinci vitse-prezident kimi Mehriban xanımın keçirdiyi ilk tədbir martın 9-da Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilmiş müşavirə olub. Mehriban Əliyevanın oradakı çıxışı, didərginlik taleyi yaşayan soydaşlarımıza sevgi dolu qayğıkeş münasibəti böyük məmnunluqla qarşılanıb. Ölkənin ən həssas təbəqəsinin könlünü oxşamaq üçün bunca işıqlı duyğulara sahib olmaq hər kəsin nəsibi deyil. Bu, bir daha sübut edir ki, hələ 2007-ci ildə layiq görüldüyü "Qızıl ürək" beynəlxalq mükafatı məhz onun halal haqqı olub.

Həmin müşavirədən bir qədər sonra – mayın 30-da Mehriban xanımın təşəbbüsü ilə Qaradağ rayonu ərazisində köçkünlər üçün 1026 nəfər ailəlik yaşayış kompleksinin təməli qoyulub. İyunun 27-də, müqəddəs Ramazan bayramı günündə isə Mehriban xanımın iştirakı ilə Abşeron rayonunun Masazır qəsəbəsində məcburi köçkün ailələrinə yeni mənzillərin verilməsi mərasimi keçirilib. Onlara ikiqat bayram sevinci bəxş edən birinci ledi inamla deyib ki, qaçqın ailələri tezliklə doğma yurd-yuvalarına qayıdacaqlar. Tədbirdə çıxış edən laçınlı məcburi köçkün Zabilə Cəfərova hamının ürəyindən olan sözləri dilə gətirib: "Biz – Azərbaycan xanımları Sizinlə fəxr edirik və Sizi özümüzə nümunə götürürük. Siz savadınızla, zövqünüzlə, davranışınızla, sadəliyinizlə və təşkilatçılıq qabiliyyətinizlə nümunəsiniz".

Ötən beş ildə Birinci vitse-prezident maksimum səmərəli çalışmalarını davam etdirib. Prezidentlə birlikdə bölgələrə vaxtaşırı səfərləri, xüsusilə də işğaldan azad olunmuş rayonlarda dəfələrlə olması onun xalq üçün yanıb işıq saçan ürəyinin böyüklüyündən soraq verir. Mehriban xanım ABŞ, İtaliya, Rusiya və sair ölkələrə səfərlərində Azərbaycanı yüksək səviyyədə təmsil edib. Bir sıra beynəlxalq mükafata, orden və medallara layiq görülüb. Bunlardan Rusiyanın Müqəddəs Mələksima Knyaginya Olqa və "Dostluq" ordenlərini, İtaliyanın "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri ordenini misal çəkmək olar.

Mehriban Əliyeva 2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavinidir. O, 2005, 2010 və 2015-ci illərdə parlament seçkilərində 14 saylı Xəzər ikinci seçki dairəsindən Milli Məclisə deputat seçilib. Güvəni, etimadı daim layiqincə doğruldub.

Eyni zamanda, Mehriban Əliyeva 2004-cü ildən UNESCO-nun, 2006-cı ildən isə ICESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, həm də onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox önəm verən ölkələrdən biri kimi tanınır. Əlbəttə, xoşməramlı səfir Mehriban xanımın bu yöndə fəaliyyəti əsl örnəkdir.

Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. İdmana qayğı da Mehriban Əliyevanın həyatında mühüm yer tutur. O, neçə illərdir ki, Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və bu fəaliyyəti də təqdirəlayiqdir. Düz 20 ildir ki, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. İdman növləri arasında "şahzadə" sayılan gimnastikanın ölkəmizdə inkişafı məhz Mehriban xanımın bu idmana şahanə münasibəti sayəsində mümkün olub.

2015-ci ildə ölkəmizdə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyətinin nəticəsi kimi qeyd edilib. Bu yarışları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, sözsüz ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunlarının nümunəvi təşkili idman tariximizin parlaq səhifəsinə çevrilib. Təsadüfi deyil ki, bu zaman göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilib.

2017-ci ildə Bakıda IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevanın adı ilə bağlıdır. O, həmin Oyunların Təşkilat Komitəsinin sədri olub və işləri yüksək səviyyədə aparıb. Keçən il Tokio Olimpiadasında və paralimpiya oyunlarında idmançılarımızın qələbələri barədə xəbərləri ilk mənbə olaraq məhz Mehriban xanımın sosial şəbəkə hesablarından əldə edirdik. Qalib idmançılarla görüşlər, onlar üçün hər cür şərait yaradılmasına nail olunması dövlət başçısı ilə bərabər, onun xidmətidir.

Birinci vitse-prezidentin beş il əvvəl Təhlükəsizlik Şurasındakı təqdimatında Prezident İlham Əliyev Mehriban xanımın Heydər Əliyev Fonduna rəhbərliyini yüksək dəyərləndirib: "2004-cü ildən bu günə qədər Mehriban Əliyeva ulu öndərin adını daşıyan fondun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir".

Heydər Əliyev Fondunun fəaliyyət istiqamətləri əsasən elm və təhsil, səhiyyə, mədəniyyət sahələrini və xeyriyyəçiliyi əhatə edir. Beynəlxalq konfrans və simpoziumlar, çeşidli mədəniyyət layihələri, sosial və ekoloji proqramlar, idman tədbirləri, şəfqət aksiyaları bu sıradandır. "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və digər layihələr, ilbəil genişlənən "Hərəmiz bir ağac əkək!" aksiyası, dünyaya səs salan "Qız qalası", "Muğam aləmi" festivalları və muğam müsabiqələri, Qəbələdə keçirilən, həmçinin Rostropoviç adına ənənəvi beynəlxalq musiqi festivalları heç vaxt təravətini itirmir.

Gənc nəslin yüksək təhsillə əhatə olunması Heydər Əliyev Fondunun fəaliyyət prioritetlərindəndir. Xaricdəki uşaqların təhsili fondun diqqətindən kənarda qalmır. 2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbinə kompüter dəsti və dərs vəsaitləri göndərilib. 2008-ci ildə isə Pakistanın Müzəffərabad şəhərində zəlzələ nəticəsində dağılmış məktəb fondun "Təhsilə dəstək" layihəsi çərçivəsində yenidən tikilərək, hər cür avadanlıqla təchiz olunub. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Rusiya, Gürcüstan və Misirdə yeni məktəb binaları tikilərək istifadəyə verilib. Azərbaycanda bu sahədə daha geniş cəbhə açılıb. Keçən tədris ilində fondun dəstəyi ilə Bakı, Gəncə və Mingəçevir şəhərlərində, eləcə də rayonlarda 62 məktəb inşa və əsaslı təmir olunub.

Ötən payız 44 günlük Vətən müharibəsi zamanı dünyanın ən nəhəng dini mərkəzi olan Vatikanın Qarabağ probleminin həllinə obyektiv yanaşması, neytrallığını qoruyub saxlaması, İtaliya kimi nəhəng bir dövlətin Azərbaycana öz dostluğunu ifadə etməsi, Pakistanın hər cür mənəvi dəstək verməsi dövlət başçımızın uzaqgörən siyasətinin, uğurlu diplomatiyasının nəticəsi olmaqla bərabər, bizim dünyaya tanıdılmağımızda müstəsna xidmətləri olan Heydər Əliyev Fondunun da mühüm xidməti sayıla bilər.

Yeri gəlmişkən, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının, soyqırımı siyasətinin ifşası və dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun əsas hədəflərindən biridir. Bu məqsədlə xarici ölkələrdə tədbirlər keçirilir, sərgilər təşkil olunur, müxtəlif dillərdə buklet və kitablar nəşr edilir. 1918-ci ildə Azərbaycan qəzalarında törədilmiş soyqırımını tarixi faktlarla əks etdirən 16 adda, 3 dildə buklet, 4 adda, 3 dildə kitab çap olunub. Fondun "Qarabağ həqiqətləri" bukletlər toplusu, bu silsilənin davamı olaraq "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı ingilis dilində nəşr edilib. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir.

Ötən ilin may ayında, müzəffər silahlı qüvvələrimizin işğaldan azad etdiyi Qarabağ torpağında – Şuşanın məşhur Cıdır düzündə uzun fasilədən sonra yenidən keçirilmiş "Xarıbülbül" musiqi festivalının əsas təşkilatçısı da Heydər Əliyev Fondu olub. Bu çərçivədə beynəlxalq incəsənət festivalı təşkil edilib və 13 ölkəni təmsil edən 32 rəssam işğaldan azad olunan ərazilərdə "Xarıbülbül" maketlərini, digər unikal əsərləri ərsəyə gətirib. Fond tərəfindən hazırlanan, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusu festivalda ictimaiyyətə təqdim edilib. Bu nəşr Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunmasına Mehriban xanım Əliyevanın hədiyyəsi kimi dəyərləndirilib. Heydər Əliyev Fondu Şuşada "Qarabağın mədəni irsi" toplusunu da təqdim edib. Bu topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən 5 nəşr daxildir. İştirakçılar, həmçinin "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiyaya baxıblar. Festivalın ilk günündə Cıdır düzündə Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" adı ilə təqdim edilib. Ertəsi gün, yekun qala konserti olub. Sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva festivalda çıxış edən incəsənət xadimləri ilə görüşüblər. Cıdır düzündə hamı birlikdə "Qarabağ Azərbaycandır!" – söyləyib. Dünya bir daha şahidi olub ki, mənfur qonşular Qarabağdakı evləri, abidələri dağıtsalar da, ölməz Azərbaycan ruhunu silə bilməyiblər.

Buradaca xatırladaq ki, "Xarıbülbül" festivalından iki ay öncə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərində olarkən Molla Pənah Vaqifin dağıdılmış muzey-məqbərə kompleksinə getmişdilər. Tezliklə Heydər Əliyev Fondu bu kompleksə də ikinci həyat verib. Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunub. Avqustda orada Vaqif Poeziya Günləri uğurla keçirilib. Qarabağda erməni vandalizminin nəticələrinin aradan qaldırılması, Şuşadakı tarixi dini abidələrin bərpası sahəsində də fond layiqli fəaliyyət göstərir.

Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində COVID-19 pandemiyasına qarşı mübarizə mühüm yer tutur. Fond müvafiq laboratoriyaların təcili təşkilinə, ölkəmizin yüksək keyfiyyətli testlərlə təmin olunmasına yaxından dəstək göstərib. Fond tərəfindən xüsusi rejimli xəstəxanalar üçün tibbi avadanlıq və ləvazimat, dərman preparatları xaricdən alınaraq Azərbaycana gətirilib. Daha bir nəciblik nümunəsi isə bu olub ki, COVID-19 üzündən talassemiya, hemofiliya və leykoz xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı azaldığı üçün Mehriban Əliyevanın təşəbbüsü ilə qanvermə aksiyaları təşkil edilib. Virusa yoluxmuş bir sıra tanınmış şəxslərə də Mehriban xanımın tapşırığına əsasən yaxından dəstək göstərilib və onlar zəruri müalicə alaraq sağalıblar. Xüsusi karantin rejimi ilə əlaqədar olaraq Heydər Əliyev Fondu "Biz birlikdə güclüyük!" layihəsi çərçivəsində ardıcıl surətdə vətəndaşları ərzaq bağlamaları ilə təmin edib. Aztəminatlı və digər həssas qruplardan olan 100 minədək ailəyə dəfələrlə bayram sovqatları çatdırılıb. Mehriban Əliyevanın şəxsi təşəbbüsləri ilə xüsusi qayğıya ehtiyac duyan insanlara fərdi qaydada kömək göstərilməsi bu təşkilata əsl ümumxalq rəğbəti qazandırıb. Əksər ərazilərdə çəkilən yollar, tikilən sığınacaqlar, himayəyə ehtiyac duyan uşaqlar üçün təşkil olunan bayram tədbirləri, yardım və hədiyyələr daimi xarakterlidir.

Milli Məclisdəki çıxışı zamanı Mehriban xanımın söylədiyi bu fikirlər ötən müddət ərzində öz təsdiqini bütünlüklə tapıb: "Mən öhdəmə düşən məsuliyyəti çox yaxşı dərk edirəm və əlbəttə, həyəcan da keçirirəm. Lakin mən gələcəyə böyük nikbinliklə baxıram. Çünki mənim sizin kimi həmkarlarım var, məni dəstəkləyən minlərlə soydaşımız var, ölkəmizin İlham Əliyev kimi bacarıqlı, cəsarətli, zəkalı, eyni zamanda, ən yüksək insani keyfiyyətlərə malik olan prezidenti var. Biz birlikdə əyilməz bir gücük. Mən əminəm ki, Azərbaycanın gələcəyi üçün, Azərbaycanın gələcək inkişafı üçün, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimizdən gələni bundan sonra da tam gücümüzlə birlikdə, bir komanda kimi həyata keçirəcəyik".

Parlaq şəxsiyyətlər sayılan Azərbaycan xanımları da tarix yazıblar. Tomrisi, Sara xatunu, Xan qızı Natəvanı ...yada salmaq kifayətdir. Elə Mehriban xanımın hazırkı geniş ictimai-siyasi fəaliyyəti həmin ənənənin davam etdiyinə gözəl nümunədir.

Birinci vitse-prezident Mehriban Əliyevanın milli dövlətçilik ideyalarına sədaqəti ona çox böyük nüfuz qazandırıb. Başlıcası budur ki, onun bütün fəaliyyətində xeyirxahlıq ən öncül istiqamət sayılır. Xalqın rifahına yönəldilmiş bu xoş məramı, parlaq qayəni hər kəs yüksək qiymətləndirir.

***"Xalq qəzeti"***